# Kredo

MÜBARİZƏSİDİR! TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet №07 (1301) 18 fevral 2026-cı il Qiymәti 1 manat

Qəzet 1999-cu ilin oktyabrından çıxır


# İNSANA SEVGİNİN SONSUZLUĞU

*Ulduz Qasımın "Doktor Meşali" romanında ali insan tipinin görünən və görünməyən tərəflərdən təsviri...*




*Əli Rza XƏLƏFLİ*


Hərdən uşaqlığımı yada salanda, keçmişimi xatırlayanda yadıma düşür: "niyə" ilə dolu nənəmə çoxlu suallar verirdim. Niyə 1918-ci ildə ermənilər kəndimizi yandırdılar, niyə onların qabağını alan olmadı, niyə filan iş elə oldu. Niyə filankəsin Allahsızlığına qarşı çıxan yox idi? ? Nənəm bircə cümlə ilə cavab verərdi, çox izah eləməzdi: "Ağaca çıxmaq hər kəsə asan gəlir".

Bu qənaət elə yazıçı taleyinə də çox uyğun gəlir, əsəri oxuyuruq, əsər haqqında danışırıq, yaxud ömründə bircə cümlə qura bilmiyənin özü, əlindəki kitabdan iki-üç səhifə oxuyub çox asanca bir rəy verir: Burda nə var, bunu yazmaq eləmi çətindir?" İndi buyur cavab ver, bəli, ağaca çıxmaq hər kəsə asan gəlir. Yazıçı əməyi karxanadan daş çıxarmağa, mərmər, yaxud qranit qayadan heykəl yonmağa daha çox bənzəyir.

Yazıçı düşüncəsini sıxır, insanların mənəvi mühitini yad planet kimi gəzir. Varlığına qayıdan düşüncələri yazıya gətirir. Son illər, çox istedadlı və tanınmış yazıçımız Ulduz Qasımın yaradıcılığını yaxından öyrənməyim və araşdırmam məndə belə bir qənaət yaradıb ki, o, yazıçılığın əzablarına dözməyin əzəmi gücünü şərəflə daşıyır.

"Qarabağda qiyamət"i oxuyanda, "Xocalı şikəstəsi"nin söz-muğamını ruhuma yığanda və yaxud "Solmayan nərgiz"i, "Qürbət zöhrəsi"ni oxuyanda Ulduzun kimliyini, yazıçı qüdrətini daha yaxından dərk eləmişəm.

Sözün, sənətin insan ruhuna təsiri müəllifin ecazından çox asılıdır. Müəllif nə qədər insan mənəviyyatının dərinliyinə vara bilirsə bir o qədər, təsir edici gücə malik olur. İnsafən Ulduz Qasım yazı əzablarına qatlaşaraq yaratdığı obrazların kökünə doğru, dərinliklərinə doğru uğurla irəliləyə bilir, görünür onun sürətlə Azərbaycan ədəbi mühitinə daxil olmasında istedadı ilə birgə zəhməti də əvəzsiz əhəmiyyət kəsb edir. Ulduz yazıçılıq əzablarını yaşayaraq yaradır. Bəlkə də, yaratdığı obrazın ağrı-acılarını, öz varlığında hiss etməsə duymasa heç qədərincə təsirli də yaza bilməz. Bu düşüncələrimin həqiqət olduğuna inanıram. Düşünürəm ki, bu həqiqətlər yaradıcılığının kamillik zamanını yaşayan yazıçının mənəvi mühitinin hansı meyarlar üzərində bərqərar olduğuna ən yaxşı sübutlardır.

Mən yazıçı əzabının həqiqətlərini Ulduz Qasımın "Doktor Meşali"romanının fəlsəfi-psixoloji mahiyyətini dərk edərkən bir daha hiss etdirm. Bəri başdan deyim ki, Ulduz Qasım "Doktor Meşali" ilə yaradıcılığının yeni səhifəsini açıb. Bu səhifənin mahiyyətini belə də ifadə etmək olar; yazıçı bəşəri dəyərlər uğrunda mübarizə məkanına çıxıb. Məkan sözünü meydan məfhumu ilə də ifadə etmək olardı. Ancaq, "meydan"da da məhdudluq var. Məkan isə bəşəri məzmun daşıyır. Harda insan varsa orda məkan var, və bu məkan bütün Yeri ehtiva edir.

Doktor Meşali Yerin adamıdır. O, kiçik bir kənddə uzaq kasıblar məhəlləsində, əgər belə demək olarsa, dilənçilər arasında yaşamağı özünə eyib bilmir. Bu kimsəsiz, Allahın da yaddan çıxartdığı insanların arasında yaşayaraq, onların sağlamlığını qorumaq istəyi, ən ali bir insani hissdir. Doktor Meşali həyatının mənasını faciə-



lərin zəncirvari reaksiyasını qırmaqda görür. Yalnız bu yolla bəşəri xilas etməyin mümkünlüyü düşünür. Bəlkə də gələcəkdə ədəbi tənqid "Doktor Meşali" ni "Don Kixot" la da müqayisə edəcək. Ancaq , kiçik bir nüfuzedici müşahidə "Doktor Meşali" ilə "Don Kixot" arasındakı fərqi göstərə bilər. Don Kixot yel dəyirmanı ilə qarşılaşır. Yel dəyirmanının pərlərinə qılıncı ilə zərbə vurur. Bu da oxucuda istər-istəməz gülüş doğurur. Doktor Meşali cəmiyyətə qarşı durur. O, cəmiyyətin məhv etməkdə olduğu insanları qorumağa çalışır. Özünün şəxsi nümunəsi ilə cəmiyyətin məhv etməkdə olduğu insanları xilas etmək, onları yenidən insani dəyərlərlə silahlandırmaq və təzədən cəmiyyətin anti-qüvvələrinə qarşı çıxarmaq məqsədi güdür. əslində o, insanı xilas etmək istəyir. Bununla da elə adi dəyərlərə xidmət edir.

Bu düşüncələri bizə Ulduz Qasımın "Doktor Meşali" romanının ədəbi qəhrəmanı ilə bağlı təsvirləri təlqin edir. kiçik bir parçanı burada diqqətə çəkmək yerinə düşər: "Bir gün Hüseyn Muhammədin yanına gələndə yolda bir kiçik pişik balası gördü. Onun yeriyə bilməməsi oğlanın ürəyini ağrıtdı. Qucağına aldı heyvanı. Öz-özünə danışmağa başladı:"Səni doktorun yanına aparacam. O sənə də kömək edər. Bilirsən, dostum, o çox mərhəmətlidir. Bəxtin gətirib. Hamıya kömək əli uzadır. Ürəyi böyükdü. Hamınınkından böyükdü doktorumuzun ürəyi. Mən bunu gördüm. Tantanın əhalisi də onu tanıyacaq, mənim kimi düşünəcəklər. Hər şeyini atıb gəlib bura, bizim yanımıza. Mən onun Qahirədə necə yerdə klinikası olduğunu, hamının ona necə hörmət etdiyini gözlərimlə gördüm. Ən varlı insanlar Meşalinin yanına gəlirdi. Hamı onun necə savadlı olduğundan danışırdı. İndi bizim kimilərinə kömək edir. O mənim üçün dünyada ən gözəl insandı. Qorxma, sənə də kömək edəcək. Bilirəm, o hər şeyi anlayır, hər xəstəliklərə çarə tapa bilir." Klinikaya çatıb içəri girdi. Muhamməd Hüseyini görüb sevindi". Zənnimcə mətn kifayət qədr bütöv bir mahiyyəti ifadə edir. demək Doktor Meşali, təkcə insanları yox, elə bütün canlıları hifz etməyin fədakarıdır.

Doktor Meşali varlı bir ailənin övladıdır. Qahirənin mərkəzində yüksək səviyyəli klinika sahibidir. Kifayət qədər məşhurdur. Amma kasıblar məhəlləsindən gətirilən uşağın ağır durumunu müalicə etmək üçün xərcin əvəzini uşağın qardaşı öz həyatı ilə ödəməli olanda onun insani duyğuları çəhanə bir etiraz məqamına qalxır. O, "belə olmaz" deyərək qəti qərara gəlir. Bizim məqsədimiz "Doktor Meşali" romanının məzmununu danışmaq deyil.

Bəzən, həyat həqiqətlərini bütün çılpaqlığı ilə təsvir edən yazıçıları qınayırlar. Qərəzkarlıqda təqsirləndirirlər. Amma, Ulduz Qasım demək olar ki, əsər boyu sanki heç nəyə müdaxilə etmir. O hadisələrin qanuna uyğun inkişafını qoruyur. ELə yazıçılığın əsas şərti də budur.

Əsərdə, Doktor Meşalinin ən müqəddəs diləklərinə qarşı çıxanlar da az deyil. Birinci növbədə o, ən ağrılı mərhələni keçməli olur. Öz həqiqətinə atasını, anasını, qardaşını inandırır. Nişanlısına, özü də çox varlı ailənin övladı olan, nişanlısını inandıra bilmədiyi üçün yolunu ondan ayırır. Ulduz Qasım obrazları tərəfkeşlik etmədən təqdim edir. hər kəsi olduğu kimi göstərməyə çalışır. Zənnimizcə, əsərin uğurunu təmin edən əsas amillərdən biri də müəllifin yazıçı mövqeyinin kənar müşahidəçi rolunu qorumağındadır.

Doğru deyirlər ki, heç elə bir namuslu əmək yoxdur ki, mükafat olaraq əvəzini almasın. Doktor Meşali zəhmətinin əvəzini, fədakarlığının dəyərini insanların sevgisi ilə qazanır. Kasıblar məhəlləsi, az qala dilənçilər kəndi olan Tantada klinika açır. Nə qədər insanın həyatını xilas edir. Sübut edir ki, "Allahın ümidinə buraxılmış insanları, yalnız elə insanın özü xilas edə bilər". Əlbəttə, bu düşüncələr Ulduz Qasımın mənəvi kriteriyalarının ölçüsü kimi, ruhumuza diqtə olunur. Biz yazıçının özü ilə birgə Doktor Meşalini sevə bilirik.


*(Davamı 3-cü səhifədə)*

# İNSANA SEVGİNİN SONSUZLUĞU

## *Ulduz Qasımın " Doktor Meşali" romanında ali insan tipinin görünən və görünməyən tərəflərdən təsviri...*

***Redaktor və Ön sözün müəllifi:***
***Əli Rza Xələfli, şair-publisist***

***Rəyçi və son sözün müəllifi:***
***Şəddat Cəfərov, fəlsəfə doktoru, yazıçı-publisist***

***Ulduz Qasım (İmanova Ulduz Fəzli qızı). Doktor Meşali (roman-xronika). Bakı-2026, "Gənclik" nəşriyyatı, 240 səhifə.***

***Tanınmış yazıçı Ulduz Qasımın roman-xronika janrında qələmə aldığı "Doktor Meşali " əsəri insanlıq uğrunda fədakarcasına mübarizə aparmış, həyatını bütünlüklə tavanasız insanların taleyinə təmənnasız olaraq həsr etmiş əfsanəvi həkim Muhamməd Əbdülqaffar oğlu Meşalinin ömür yolundan bəhs edir. Müəllif əsərdə insanlığa fədakarlıqla xidmət etmiş həkimin zəngin mənəvi mühitini təsvir edir. Onun bəşər nəslinə örnək olacaq şəxsiyyətini sözü ilə əbədiləşdirir. "Doktor Meşali" xronika romanında zəngin obrazlar aləmi var. Məhəbbət və nifrət, sevgi müqəddəsliyi, insani dəyərlərin uca tutulması kimi məsələlər real hadisələr fonunda canlandırılır. Əsər maraqla oxunur.***

*(Əvvəli 1-ci səhifədə)*

Doğrudur, əsər boyu müəllif, bəlkə də, qədərindən artıq mistik düşüncələrə də varır. Ancaq əsərin həqiqəti reallıqla daha çox bağlıdır. Yəni insanın özü insan olduğunu dərk etdikcə o, cəmiyyət üçün daha faydalı olur. Əsər boyu çox maraqlı epizodlar var. Doktor Meşalinin aşağılanmaq, savadsız kütlə tərəfindən sayılmazlıq məqamlarında təmkinli mövqeyini müşahidə etmək, hər hansı bir oxucuda insanın mənəvi böyüklüyünün nə zorda, nə də maddi imkanda olmadığına inam yaradır. Şeronun kinli münasibəti, din ayrı düşmənçilik mövqeyi Doktor Meşalini insanlığından çıxara bilmir. O özünün mənəvi böyüklüyü, təpəri ilə qarşısındakını ram edir. onu kindən çıxara bilir. Nəhayət, bir sözlə insanlığa qaytara bilir. Burada da bir epizodu yada salmaq, zənnimcə, yerinə düşər: "Şeronla Sara əlləri qoyunlarında var-gəl edirdilər. Tantalıların da çoxu birinci dəfəydi ki, ürək əməliyyatı olunduğunu eşitdikləri üçün buraya toplanmışdılar. Xeyli keçəndən sonra Şeyx Tayyib də gəlib çıxdı. Uşağın valideynlərinin necə həyəcanlandıqlarını görüb onlara təsəlli verdi. Əgər Muhamməd bir işi öz üzərinə götürürsən, bu, onun öhdəsindən gələcək deməkdi.. Onun əzminə, savadına, biliyinə inanıram, dedi. Özünüzü ələ alın. Siz də dua edin. Elə hamımız dua edək ki, Muştu əməliyyatdan yaxşı çıxsın. Şeron sanki bu insanları birinci dəfəydi görürdü. Daim müsəlmanlara nifrət bəsləyən, onları alçaltmağa çalışan adam peşmançılıq hissi keçirirdi."İllərdi elə bilirdim bunların sinələrindəki ürək deyil, daşdı. Sən demə çox yanılırmışam. Pis insan elə mən özüməm. Nə bilim, bizimkilərin də yerli-yersiz danışıqlarına qulaq asırdım. Bir dəfə də olsun öz başımla fikirləşmirdim. Yaxşı deyiblər insanları dara düşəndə yoxlamaq lazımdı. İndi mən qəddar bildiyim adamlar bura yığışıb, mənim övladıma dua edirlər. Doğrudan da utanıram öz düşüncələrim üçün. Sən demə mənim ürəyimdi daşa dönən."




Sara həyat yoldaşının təxminən nə fikirləşdiyini bilirdi. Çünki onun belə fikirlərinə görə neçə dəfə ərini danlamışdı. Bir gün gələcək peşman olacaqsan, demişdi. Hətta, bir dəfə əməlli-başlı dalaşmışdılar da". Beləcə həyat epizodları dəyişdikcə biz Doktor Meşalinin böyüməyini ona qarşı qərəzli mövqe tutanların alçalmağını yox, mənən təmizlənib insanlığa dönüşlərini müşahidə edirik.

Doğrudur, Doktor Meşaliyə qarşı kin və ədavət hissi asanlıqla geri çəkilmir. Əbdülrəhman adlı həkimin (Doktor Meşalinin tələbə yoldaşıdır) kini düşmənçiliyi öz başında çatlayır. Doktor Meşali sonsuz həyat sınaqlarından alnı açıq çıxır. Bütün mənəvi psixoloji savaşların hər birinin də qalibi kimi daha da yenilməz olur.

Əsərdə təsvir olunduğu kimi, həyatda da Doktor Meşali çox kasıb görkəmi ilə yaddaşlarda qalıb. Ancaq mənəvi zənginliyi onu dünyanın ən əzəmətli obrazına çevirib.

Doktor Meşali tarixi şəxsiyyətdir. Ulduz Qasım Doktor Meşalinin həyatını yaxşı öyrənib. Onun mənəvi mühitinin dərinliklərinə, psixoloji mahiyyətinə vara bilib. Müəllif mümkün qədər həyat həqiqətlərinə sadiq qalıb. Açığı bir oxucu kimi mənim özümdə də təəssüf doğuran bir hiss var; Doktor Meşali öz sağlığında dəyərini, qiymətini ala bilməyib. Bu qədər insanlığa doğma olasan, hər kəsə qarşı sonsuz sevgi bəsləyəsən, sevgisizlərə öz sevginlə can verəsən, şərəfli bir ailənin başçısı olasan, ləyaqətli bir qadının sevgilisi, cəfakeş bir ananın həyat yoldaşı olasan, ali mənsəb bir ata kimi özünü təsdiq edəsən... amma, dünya səhiyyə təşkilatının bir ləyaqətli ödülünə layiq görülməyəsən Əlbəttə, bu da Doktor Meşalinin faciəsi idi.

Əslində Doktor Meşali uca insanlığı yer kürəsindəki ən üstün mərtəbə hesab edir. O, bu mərtəbəni adi, kasıb, sadə insanlar arasında nadir fədakarlığı ilə qazanıb. O, həqiqətən insanlar arasında nadirliyini təsdiq etmişdi.

Ulduz Qaısm Doktor Meşalinin sağlığnda ünvanına verilməyən Nobel mükafatını elə "Doktor Meşali" romanı ilə həqiqətə çevirib.

Zənnimcə, bu əsər təkrar-təkrar, ən azı ingilis və ərəb dillərinə tərcümə edilməli, nəşr olunmalıdır.

***16.02.2026***